Azər və Vüsal da, qızı Ülkər və kürəkəni Samir Vəliyev də müqəddəs yerlərdə, Həc ziyarətində olublar. Maraqlı odur ki, ailənin başçısı İmran Əbilov lap gəncliyindən iman sahibi olmuşdur. İkinci kursda ona Stalin təqaüdü verəndə Şah Abbas məscidinə gedib 10 manat nəzir verib və bu ənənə institutu bitirənə qədər davam edib.

Əsər boyu ədəbiyyat adamı olmayan İmran Əbilovun yazıçı və şairlərə belə şirin münasibətinin haradan qaynaqlandığı məni düşündürürdü. Əsərin sonuncu - "Bədii düşüncələr" bölməsinə çatanda hər şey aydın oldu. Məlum oldu ki, şair təbiətli İmran müəllim özü də şeir yazırmış. 1978-ci ildə Hindistanda beynəlxalq konfrans zamanı Aqra şəhərində dünyanın yeddi möcüzəsindən biri Tac Mahalı ziyarət etmiş və diqqəti cəlb edən şeir yazmışdır. 2011-ci ildə Nizaminin 870 illik yubileyində Dövlət nümayəndə heyəti tərkibində Hindistanda olmaq, ingiliscə "Azərbaycan-Hindistan ədəbi-mədəni əlaqələri" mövzusunda məruzə etmək və illərcə arzusunda olduğum Tac Mahalı ziyarət etmək mənə də qismət oldu. O təəssürat o qədər güclü idi ki, indi də unudulmur. Ola bilsin ki, İmran Əbilovun şeiri bu səbəbdən mənə əsl poeziya nümunəsi kimi təsir edib, bilmirəm. Bir onu bilirəm ki, əslən türk olan Cahanşahın tikdirdiyi bu möhtəşəm və bənzərsiz abidəni İmran müəllim çox gözəl tərənnüm edib:

*Baxdıqca heyrətdən donub qalıram,*
*İnsan zəkasının qüdrətinə bax.*
*Dərin xəyallara, fikrə dalıram,*
*Keçmiş əsrlərdən verir o soraq.*

*Tac Mahal Aqranın başının tacı,*
*Gözəl abidələr dayanmış qoşa.*
*Sanki iki əkiz, iki cüt bacı,*
*Ey türk möcüzəsi, min illər yaşa.*

"Ayrılıq" şeirindən götürdüyümüz misralardan göründüyü kimi, İmran Əbilov dərindən duyduqlarını qələmə alır:

*Ağladıb insanı, Habil sayağı,*
*Çalır ürəklərdə kaman ayrılıq.*

Deyirlər, müdriklik, ləyaqət və istedad Allah vergisidir. Bu baxımdan İmran müəllimin "Ləyaqət" şeiri məni düşündürdü. Bu şeir keşməkeşli zəmanəmizdə xüsusi əhəmiyyət kəsb edir. Mənə qalırsa, həyatda ən böyük var-dövlət ləyaqətdir. Hər şeyi xərcləmək olar, qazanırsan xərcləmək üçün. Ləyaqət və vicdandan savayı. Onu xərcləmək olmaz. O insana ehtiram və başucalığı gətirir. Şeirdən verdiyimiz misralar deyilənlərə dayaq olur:

*Ləyaqət deyilən bir qismət vardır,*
*Kimə pay düşərsə daim ucalar.*
*Ləyaqət sahibi nə bəxtiyardır,*
*Tanrı mükafatı başa tac olar.*

Deyirəm, nə yaxşı ki, xalqımızın İmran Əbilov kimi ləyaqətli oğulları, nümunə ola biləcək şəxsiyyətləri vardır. Nə yaxşı ki, belələrini Yaradan xalqa bəxş edir.

**Ədəbiyyat qəzeti.- 2017.- 27 may.- S. 29.**